INSAN HAQLARI

İqbal Əbilovun cərimə kamerasına salındığı bildirilir

Noyabr 16, 2026



İqbal Əbilov

"Talış Milli Akademiyasının xəbərləri" jurnalının baş redaktoru, həbsdə olan tədqiqatçı **İqbal Əbilov**un Bakı 1 saylı İstintaq Təcridxanasından 12 saylı Cəzaçəkmə Müəssisəsinə qaytarıldığı deyilir.

Əbilovun Hüquqlarının Müdafiə Komitəsinin məlumatına görə, onun qapalı rejimli cəzaçəkmə müəssisəsinə keçirilməsi ilə bağlı qərar hələ qanuni qüvvəyə minmədiyindən o, həmin rejimə köçürülməyib.

Komitənin noyabrın 13-də yaydığı məlumata əsasən, Əbilov müəssisəyə qaytarıldıqdan sonra karserə (cərimə kamerası) salınıb və bu zaman hər hansı əsas göstərilməyib: **"Bildirilib ki, bu addım qanunun tələbidir, lakin konkret olaraq hansı qanun normasına əsaslanıldığı açıqlanmayıb".**

Komitənin qənaətinə görə, Azərbaycan qanunvericiliyində məhbusun bir cəzaçəkmə müəssisəsindən istintaq təcridxanasına və ya əksinə köçürülməsinə görə karserə salınmasını nəzərdə tutan hüquqi norma yoxdur.

Qurum aidiyyəti təşkilatları Əbilovun cərimə kamerasına yerləşdirilməsinin hüquqi əsasını açıqlamağa çağırıb.

Komitənin bütün bu açıqlamalarına rəsmi qurumlardan münasibət öyrənmək mümkün olmayıb.

2 noyabr

İqbal Əbilov qapalı həbsxanaya göndərilir

"Talış Milli Akademiyasının xəbərləri" jurnalının baş redaktoru, həbsdə olan tədqiqatçı **İqbal Əbilov**un 1 il müddətinə qapalı tipli cəzaçəkmə müəssisəsinə göndəriləcəyi gözlənilir.

Onun Hüquqlarının Müdafiə Komitəsinin verdiyi məlumata görə, noyabrın 2-də Qaradağ rayon Məhkəməsində Penitensiar Xidmətin 12 saylı Cəzaçəkmə Müəssisəsinin (CÇM) İ.Əbilovun 3 il müddətinə qapalı tipli həbsxanaya göndərilməsi ilə bağlı təqdimatına baxılıb.

Bildirilir ki, hakim Teymur Qurbanovun sədrliyi ilə keçirilən prosesə 12 saylı CÇM-nin nümayəndəsi onlayn qoşulub.

İ.Əbilov çıxışında cəzaçəkmə müəssisəsinin ona qarşı irəli sürdüyü intizam pozuntusu iddialarının əsassız olduğunu, bir sıra cəza qərarları ilə bağlı ondan ümumiyyətlə izahat alınmadığını vurğulayıb. Gənc tədqiqatçı ona qarşı yönələn iddiaların yoxlanılması üçün digər məhkumların şahid qismində dindirilməsini və müşahidə kameralarının görüntülərinin araşdırılmasını istəyib.

İ.Əbilov həbsxanada üzləşdiyi təzyiqlərin talış dilində danışması və üzərində ana dilində şeir yazılmış köynək geyinməsi ilə əlaqədar olduğunu bildirib.

O, həmçinin cərimə kamerasında (karserdə) saxlanılarkən səhhətinin pisləşdiyini, ona tibbi yardım göstərilmədiyini və müayinə olunmadığını söyləyib.

Məlumata görə, məhkəmə 12 saylı CÇM-nin təqdimatını qismən təmin edərək İ.Əbilovun 1 il müddətinə qapalı tipli həbsxanaya göndərilməsi barədə qərar çıxarıb.

Onun səsləndirdiyi ittihamlara rəsmi qurumlardan münasibət öyrənmək mümkün olmayıb.

Bununla belə, rəsmilər bir qayda olaraq Azərbaycanda heç bir etnik azlığın ayrıseçkiliyə məruz qalmadığını və ölkədə multikultural dəyərlərin tam qorunduğunu vurğulayırlar.

15 iyul

Yaxınları: "İqbal Əbilov işgəncəyə məruz qalıb"

Həbsdə olan tədqiqatçı, "Talış Milli Akademiyasının xəbərləri" jurnalının baş redaktoru **İqbal Əbilov**un saxlandığı 1 saylı Bakı İstintaq Təcridxanasında işgəncəyə məruz qaldığı deyilir. Bu barədə iyulun 13-də onun Hüquqlarının Müdafiə Komitəsi və yaxınları məlumat yayıb.

Komitənin açıqlamasında gənc alimin cərimə kamerasında (karser) işgəncə gördüyü vurğulanır: **"Onun qolları dəmir çarpayıya bağlanıb, bədəninin müxtəlif nahiyələrində göyərmələr və ağır xəsarətlər əmələ gəlib. İqbal Əbilovun karserə salınmasına Yasamal rayon Məhkəməsindəki iclasa üzərində istiqlal şairi Əli Nasirin "Millət öz başını itirən günü, qazanır yurdunun ölüm hökmünü" misraları yazılmış qısaqol köynəklə çıxması səbəb olub".**

İyulun 7-də Yasamal rayon Məhkəməsində İ.Əbilovun bir sıra kütləvi informasiya vasitələrinə (ATV, "Qafqazinfo" və daha bir neçə sayt) qarşı qaldırdığı mülki iddia üzrə ilk məhkəmə iclası keçirilib. O hesab edir ki, sözügedən KİV-lərdə yayımlanan materiallarda onun təqsirsizlik prezumpsiyası pozulub, barəsində şərəf və ləyaqətini ləkələyən məlumatlar dərc olunub.

İddiaya qarşı tərəf olan KİV-lərdən münasibət öyrənmək mümkün olmayıb; Komitə onların ilk iclasa nümayəndə göndərmədiyini bəyan edib.

Üstəlik, komitənin və İ.Əbilovun yaxınlarının onun işgəncəyə məruz qalması ilə bağlı açıqlamalarına da rəsmi qurumlardan münasibət almaq mümkün olmayıb. Bununla belə, rəsmi qurumlar bir qayda olaraq təcridxana və cəzaçəkmə müəssisələrində saxlanılan şəxslərin işgəncəyə məruz qalmaları ilə bağlı iddiaları əsassız sayırlar.

Xatırlatma

37 yaşlı **İ.Əbilov** həbs olunana qədər uşaqlıqdan ailəsi ilə birlikdə Belarusda yaşayıb və arabir Azərbaycana gəlib-gedib. O, sonuncu dəfə 2024-cü ilin iyununda əmisi oğlunun toyuna gəlib. Geri qayıdarkən hava limanında tədqiqatçıya ölkədən çıxışına qadağa qoyulduğu bildirilib. Bir neçə gün sonra Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) əməkdaşları onu saxlayıblar.

Ona Cinayət Məcəlləsinin 274 (dövlətə xəyanət), 281 (dövlət əleyhinə yönələn açıq çağırışlar) və 283-cü (milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınması) maddələri ilə ittiham irəli sürülüb. Lənkəran Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə bu maddələr üzrə ona 18 il həbs cəzası verilib.

Əbilov özünü təqsirli bilmir. O, aşağı instansiya məhkəmələrindəki çıxışlarında həbsini talış xalqının tarixini və mədəniyyətini təbliğ etməsi ilə əlaqələndirib.

Azərbaycan rəsmiləri isə ölkədə milli ayrı-seçkiliklə bağlı iddiaları əsassız sayır, bütün etnik qruplara bərabər imkan və şərait yaradıldığını bəyan edirlər.

Buna da bax:

İqbal Əbilov talış dilində tərcüməçi istədi, ingiliscə danışdı – 18 il həbs qüvvədə qaldı

Kamal İsayevə 8 il 6 ay həbs cəzası verilib

Redaktor: "Honi' jurnalının çətinlikləri var'

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur